**UOT 338.242.4**

# AZƏRBAYCANDA İQTİSADİ ARTIM MODELİNİN XÜSUSİYYƏTLƏRİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**A.H.HACIYEV**
***AMEA İqtisadiyyat İnstitutu***
***a.h.haciyev@gmail.com***

*Məqalədə Azərbaycanda iqtisadi artım modeli və makroiqtisadi stabilləşdirmənin xüsusiyyətləri araşdırılır. Belə ki, inkişaf etməkdə olan maliyyə bazarları və iqtisadiyyatın spesifik strukturuna malik digər ölkələr kimi, Azərbaycanda da, manatın ABŞ dollarına nisbətdə nominal mübadilə məzənnəsi inflyasiyanın səviyyəsinin zəiflədilməsi və makroiqtisadi sabitliyin təmin olunması aləti kimi istifadə olunur. Lakin hal-hazırda bu yanaşma bir sıra qüsurlara malikdir. İstifadə olunan iqtisadi artım modeli daxili tələbin stimullaşdırılmasına əsaslanır. Məqalədə təklif iqtisadiyyatına keçidin imkanları araşdırılır.*

**Açar sözlər:** inflyasiya, mübadilə məzənnəsi, monetar siyasət, dövlət büdcəsi, makroiqtisadi stabilləşdirmə siyasəti, iqtisadi artım modeli

• **Giriş.** Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il tarixli "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Sərəncamı, ölkədə ortamüddətli perspektivə, sosial-iqtisadi inkişafın əsas problemlərinin hansı müstəvidə müzakirəsi zərurətini müəyyənləşdirir. Belə ki, Sərəncamda qeyd olunur ki: "Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır" (1).

Sərəncamda müəyyənləşmiş əsas hədəflərdən biri - iqtisadiyyatının əhəmiyyətli dərəcədə neft-qaz sektorundan asılılığının aradan qaldırılması, onun sahə strukturunun şaxələnməsinin təmin olunmasıdır. Məqalədə, bu baxımdan, ölkədə istifadə olunan iqtisadi artım modeli və reallaşdırılan makroiqtisadi stabilləşdirmə siyasətlərinə xas olan çatışmazlıqlar və onların aradan qaldırılması üçün aparılması zəruri olan müvafiq təkmilləşdirmələrin istiqamətləri müzakirə olunur.

- **Azərbaycanda iqtisadi artım modeli və makroiqtisadi stabilləşdirmənin xüsusiyyətləri.** İqtisadiyyatı zəif şaxələnmiş, maliyyə bazarları zəif inkişaf etmiş və xarici ticarət dövriyyəsinin əsas hissəsini təbii resursların ixracı təşkil edən bütün ölkələr kimi, Azərbaycanda da iqtisadiyyatın modernləşməsi və rəqabətqabiliyyətliliyinin yüksəlməsinə mane olan bir sıra amillər mövcuddur. Bu sıraya, ilk növbədə, ölkədə istifadə olunan iqtisadi artım modeli və stabilləşmə mexanizmlərinə xas olan çatışmazlıqlar aiddir.

Hal-hazırda Azərbaycanda istifadə olunan iqtisadi artım modeli – daxili tələbin, o cümlədən istehlak tələbatının ardıcıl yüksəldilməsi yolu ilə iqtisadiyyatda yeni yaradılan dəyərin artımının stimullaşdırılması, başqa sözlə, dövlət büdcəsi üzrə xərclərinin ardıcıl yüksəldilməsi yolu ilə daxili tələbin genişlənməsi və yeni yaradılan dəyərin artırılması modeli - bir sıra çatışmazlıqlara malikdir:

- ilk növbədə, açıq iqtisadiyyat və daxili bazarda qiymət paritetinin pozulması şəraitində istifadə olunan bu iqtisadi artım modeli və makroiqtisadi stabilləşdirmə mexanizmi iqtisadiyyatda, daha çox, idxalın artımını və xidmət sektorunun genişlənməsini stimullaşdırır. Nəticədə, ölkədə stabil iqtisadi artımla yanaşı, iqtisadiyyatın neft-qaz sektorundan asılılığı qorunub saxlanılır, istehsalın diversifikasiyası stimullaşdırılmır;

- dövriyyədə olan pul kütləsinin artımına müvafiq olaraq iqtisadiyyatda inflyasiya potensialı yüksəlir və dövrü olaraq yığılmış inflyasiya potensialının zəiflədilməsi zərurəti (məsələn, dövlət tərəfindən tənzimlənən qiymət və tariflərin qaldırılması yolu ilə); əhalinin sosial cəhətdən zəif müdafiə olunan təbəqəsinə, ünvanlı yardımların müəyyənləşdirilməsi və artırılması zərurəti yaranır.

Əgər son onillikdə ölkədə əsas makroiqtisadi göstəricilərin dinamikası təhlil olunarsa (**cədvəl**), bu halda, aşağıdakı meylləri aydın görmək olar:

**a)** iqtisadi artım göstəricilərindəki dəyişikliklər, əsasən, neft-qaz sektorunun fəaliyyətinin göstəricilərindəki dəyişikliklərlə müəyyənləşir. Belə ki, 2000-ci illərin əvvəllərindən etibarən neft-qaz sektorunun ÜDM-də payı 55-60%, xarici ticarətdə - 85-90%, dövlət büdcəsinin gəlirlərinin formalaşmasında isə 60-65% çəkiyə malikdir. Bu səbəbdən, istehsal olunan ÜDM-in səviyyəsinə və ölkədəki makroiqtisadi vəziyyətə dünya bazarlarında enerjidaşıyıcıların qiymət və tarifləri əhəmiyyətli dərəcədə təsir göstərir;

**b)** iqtisadi artımda iki dövr kəskin surətdə fərqlənir: 2005-2008-ci illər, dünya bazarlarında *Azeri Light* markalı neftin orta illik qiymətinin 50 ABŞ doll.-dan, 110-120 ABŞ doll. səviyyəsinə qədər yüksəlməsi nəticəsində, ÜDM-in artım sürətinin ikirəqəmli qiymətlərlə ölçüldüyü illər; 2008-2009-cu illər, dünya bazarlarında neftin qiymətinin 30-35%-ə qədər enməsi ilə bağlı olaraq, ÜDM-in, nominal ifadədə səviyyəsinin azaldığı dövr.

Başqa sözlə ölkədə istər iqtisadi artım, istərsə də makroiqtisadi sabitliyin göstəriciləri əhəmiyyətli dərəcədə dünya enerjidaşıyıcıları bazarında qiymət və tariflərlə müəyyənləşir.

Cədvəl

**Azərbaycanın makroiqtisadi göstəriciləri***

| | A | B | C | D | E | F |
|---|---|---|---|---|---|---|
| **2000** | 4718,2 | 715,5 | 509,7 | 691,4 | 0,8948 | 1,8 |
| **2001** | 5315,6 | 783,8 | 686,8 | 698,4 | 0,9313 | 1,5 |
| **2002** | 6062,5 | 910,2 | 758,2 | 681,7 | 0,9722 | 2,8 |
| **2003** | 7146,5 | 1225,5 | 1018,8 | 757,0 | 0,9821 | 2,2 |
| **2004** | 8530,2 | 1481,2 | 1505,9 | 960,8 | 0,9827 | 6,7 |
| **2005** | 12522,5 | 2055,2 | 1841,8 | 1112,2 | 0,9459 | 9,6 |
| **2006** | 18037,1 | 3881,2 | 3440,5 | 1967,3 | 0,8714 | 8,3 |
| **2007** | 26815,1 | 6006,6 | 5897,3 | 4015,3 | 0,8461 | 16,7 |
| **2008** | 40137,2 | 10762,0 | 8494,2 | 6137,0 | 0,8046 | 20,8 |
| **2009** | 34578,7 | 10325,9 | 8469,2 | 5175,6 | 0,803 | 1,5 |
| **2010** | 41574,7 | 11402,5 | 10527,5 | 6407,6 | 0,7989 | 4,1 |
| **2011** | 50069,0 | 15700,7 | 13903,2 | 7083,3 | 0,7863 | 8,6 |

*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Mərkəzi Bankın məlumatları üzrə (cədvəldə, sütunlar üzrə, **A**–ÜDM-in səviyyəsi,mln.manatla; **B**–dövlət büdcəsinin gəlirləri, mln.manatla; **C**- dövriyyədə olan pul kütləsinin həcmi, M3 aqreqatı üzrə, mln.manatla; **D**- AMB-in qızıl-valyuta ehtiyatlarının səviyyəsi, mln.ABŞ dolları; **E** – ABŞ dollarına nisbətdə manatın orta illik mübadilə məzənnəsi; **F** – orta illik inflyasiyanın səviyyəsi, %-lə).

Azərbaycanda makroiqtisadi sabitliyin təmin olunması mübadilə məzənnəsi rejiminin, başqa sözlə, manatın nominal mübadilə məzənnəsinin inflyasiyanın dəf edilməsi aləti kimi istifadəsinə əsaslanır:

- enerjidaşıyıcıların yüksək qiymət və tarifləri şəraitində ölkənin tədiyyə balansı üzrə profisit artır, bu səbəbdən valyuta bazarında manatın sərt bağlandığı ABŞ dollarına nisbətdə nominal mübadilə məzənnəsinin möhkəmlənməsi istiqamətində təzyiqlər artmağa başlayır. AMB, istifadə etdiyi M2 pul aqreqatının hədəflənməsi rejimi çərçivəsində milli valyutanın nominal mübadilə məzənnəsinin möhkəmlənməsi meyllərinin qarşısının alınması üçün əsas istifadə etdiyi alət - valyuta bazarına daxil olan izafi valyuta kütləsinin intensiv alışı siyasətini reallaşdırmağa başlayır.

Lakin bu, bir tərəfdən AMB-in rəsmi qızıl-valyuta ehtiyatlarının artması ilə nəticələnirsə, digər tərəfdən, M2 aqreqatı üzrə dövriyyədə olan pul kütləsinin genişlənməsini, nəticə etibarı iləsə, iqtisadiyyatda ümumilikdə daxili tələbatın, və onun əsas tərkib hissəsi olan istehlak tələbatının səviyyəsini genişləndirərək inflyasiya proseslərini sürətləndirir. Belə şəraitdə AMB-in həll etdiyi əsas dilemma - inflyasiyanın sürətlənməsi ilə manatın nominal mübadilə məzənnəsinin möhkəmlənməsi arasında seçim imkanları məhdudlaşır (2007-2008-ci illər ərzində inflyasiyanın ikirəqəmli səviyyəsi manatın kəskin möhkəmlənməsinə yol verilməməsi zərurəti ilə bağlıdır);

- dünya bazarlarında enrjidaşıyıcıların qiymət və tariflərinin kəskin enməsi zamanı valyuta bazarına mövcud tələbatdan aşağı səviyyədə valyuta kütləsinin daxil olması manatın nominal mübadilə məzənnəsinə, onun ucuzlaş-

ması istiqamətində təzyiqləri gücləndirir. AMB, eyni qayda üzrə, inflyasiya və devalvasiya proseslərinin nəzarətdə saxlanılması üçün, valyuta bazarına intensiv olaraq satış yönümlü müdaxilələri həyata keçirməyə başlayır. Bu müdaxilələr zamanı isə, bir tərəfdən AMB-in rəsmi qızıl-valyuta ehtiyatlarının, digər tərəfdən isə M2 aqreqatı üzrə dövriyyədə olan pul kütləsinin azalması iqtisadiyyatda daxili tələbin sıxılması proseslərini sürətləndirir. Bu proseslər isə iqtisadiyyatda inflyasiya səviyyəsi ilə yanaşı ölkədə iqtisadi fəallığın da zəifləməsi ilə nəticələnir.

Azərbaycanda mübadilə məzənnəsi rejiminin makroiqtisadi sabitliyin təmin olunması istiqamətində istifadəsi təcrübəsi (*exchange rate based stabilization*), ilk dəfə olaraq, 1995-1999-cu illər, Beynəlxalq Valyuta Fondu (BVF) ilə şərtləşdirilmiş kreditlər üzrə razılaşmalara müvafiq olaraq başlanmışdır. Sabitliyin təmin olunmasının mahiyyətini, monetarist konsepsiyanın əsas prinsiplərinə müvafiq olaraq, iqtisadiyyatda daxili tələbin genişlənməsinin sərt məhdudlaşdırılması üzrə inflyasiyanın minimum səviyyəsinin təmin olunması; və milli valyutanın cari əməliyyatlar üzrə dönərliyinin təmin olunması üzrə mübadilə məzənnəsi kanalının dövriyyədə olan pul kütləsinin artım sürətinin nəzarətdə saxlanılmasının əsas aləti kimi istifadəsi təşkil edirdi.

Bir sıra iqtisadçıların mülahizələrinə görə BVF-un, bu dövr keçid iqtisadiyyatlı və inkişaf etməkdə olan ölkələrdə reallaşdırdığı islahatlar proqramı həmin ölkələrin inkişafına müsbət təsirlərlə yanaşı bu ölkələrin iqtisadi inkişafında kəskin neqativ meyllər də müəyyənləşdirib **(2-4**). Belə ki:

- bir tərəfdən, BVF-un makroiqtisadi tənzimləmə, monetar siyasətin reallaşdırılması sxemlərinin qurulması, dövlət maliyyəsinin idarə olunması, tədiyyə balansının formalaşdırılması sahələrindəki texniki yardımları, bu sahədə milli kadrların hazırlanması və ümumilikdə iqtisadiyyatın idarə olunması istiqamətlərində kifayət qədər yüksək əhəmiyyətə malik olmuşdusa;

- digər tərəfdən, məhz BVF-un tövsiyələri əsasında dünyanın bir sıra ölkələrində reallaşdırılan stabilləşdirmə strategiyası və yaradılan makroiqtisadi sabitləşmə, həmin ölkələrin iqtisadiyyatına dağıdıcı təsirlər göstərmişdir. İnflyasiyanın qarşısının alınmasında milli valyutanın mübadilə məzənnəsinin nominal alət qismində istifadəsi, bu ölkələrdə ağır valyuta və maliyyə böhranları ilə nəticələnmişdir.

Azərbaycanda, 1995-1999-cu illər BVF-un tövsiyələri əsasında reallaşdırılan stabilləşdirmə strategiyası ağır maliyyə böhranları ilə nəticələnməsə də, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətlilik səviyyəsinə, yerli istehsalçılar üçün daxili bazar qiymətləri baxımından rentabelli istehsalın təşkili və inkişaf etdirilməsi imkanlarını əhəmiyyətli dərəcədə zəiflətdi. Belə ki, bu illər ərzində, manatın nominal və real effektiv mübadilə məzənnələrinin sürətlə möhkəmlənməsi istehlak bazarında idxal və yerli məhsullar üzrə qiymətlər səviyyəsində paritetin pozulmasını müəyyənləşdirdi. 1999-cu il Beynəlxalq müqayisə proqramlarının nəticələri üzrə Azərbaycanda manatın nominal və Alıcılıq qabiliyyəti pariteti (AQP) üzrə məzənnələri arasındakı fərq 4 dəfədən artıq idi

(qeyd edək ki, inkişaf etmiş ölkələrdə bu məzənnələr arasında fərq olmur, sürətli inkişaf edən ölkələrdə isə bu fərq 1,5-2 dəfədən artıq olmur).

2000-ci ilin əvvəllərindən etibarən, ölkədə manatın AQP və nominal mübadilə məzənnələri üzrə yaranmış kəskin fərqlərin aradan qaldırılmasına xidmət edən bir sıra tədbirlər reallaşdırıldı: sərt makroiqtisadi tənzimləmə siyasəti məhdudlaşdırıcı tənzimləmə siyasəti ilə əvəzləndi, inflyasiyanın nəzarətdə saxlanıla bilən minimum səviyyəsi təmin olundu, manatın ardıcıl devalvasiyası siyasəti reallaşdırılmağa başlandı, ölkədə neft gəlirlərinin yüksəlməsi ilə bağlı olaraq büdcə xərcləri ardıcıl yüksəlməyə başladı və s. Bütün bu tədbirlərin nəticəsi olaraq iqtisadiyyatın rəqabətqabiliyyətlilik səviyyəsinin dəyişmə meyllərinə müsbət təsirlər müəyyənləşdirən milli valyutanın real effektiv mübadilə məzənnəsi tədrici ucuzlaşmağa başladı (2000-2003-cü illər ərzində manatın real effektiv mübadilə məzənnəsi 15-20%-ə qədər ucuzlaşdı). Lakin sonrakı illər, ölkədə reallaşdırılan pul-kredit, büdcə-vergi və struktur siyasətləri arasındakı əlaqələndirmələrin yetərli olmaması daxili bazarda rəqabətqabiliyyətlik şəraitinin təkmilləşdirilməsinə imkan vermədi.

Beləliklə, makroiqtisadi tənzimləmə sahəsində aparılmış islahatların nəticəsi göstərdi ki: a) iqtisadiyyatda inflyasiyanın minimum səviyyəsinin təmin olunması, bir mənalı olaraq iqtisadi artımın sürətlənməsini təmin etmir; b) manatın nominal və real effektiv mübadilə məzənnələrinin möhkəmlənməsi şəraitində qeyri-neft sənaye sahələrinin ixrac imkanlarının yüksəlməsi mümkün deyil.

**İqtisadi artım modeli və stabilləşdirmə mexanizmlərinin təkmilləşdirilməsi məsələləri.** İstər ölkədaxili, istərsə də ölkə xaricində bir sıra iqtisadçıların mülahizələrinə əsasən problemin həlli istifadə olunan iqtisadi artım modelinin (tələb iqtisadiyyatı modelinin) yenisi ilə - təklif iqtisadiyyatı modeli ilə (iqtisadiyyatda dövlət investisiyalarının özəl investisiyalar ilə əvəzlənməsini, dövlətin iqtisadiyyatı tənzimlənməsində rolunu ardıcıl olaraq məhdudlaşdırılmasını və özəl sektorun, sahibkarlığın genişləndirilməsi ilə) əvəzlənməsini tələb edir. Tələb iqtisadiyyatı ilə təklif iqtisadiyyatı arasında seçim - makroiqtisadi siyasətdə uzun illərdir mübahisə və diskussiya predmetidir. Bu səbəbdən, problem, inkişaf etməkdə olan ölkələr və yeni modernləşdirilən iqtisadiyyatlar üçün xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanda iqtisadi inkişafının strateji hədəflərindən birini 2025-2030-cu illərə qədər ölkədə istehsal olunan ÜDM-in səviyyəsini, 9,0 min ABŞ dolları səviyyəsindən (2010-cu ilin məlumatlarına əsasən, AQP üzrə, adambaşına), 15-17 min ABŞ dolları səviyyəsinə yüksəldilməsi nəzərdə tutulur. İqtisadiyyatda məcmu tələbin səviyyəsinin 2-2,5 dəfə artırılması məsələsinin həlli iki müstəvidən biri üzrə (və ya, optimal variant kimi, onların uzlaşdırılması halında) icra oluna bilər: **I)** daxili tələbin səviyyəsi və strukturunun əhəmiyyətli genişləndirilməsi yolu ilə. Bu zaman, büdcə xərcləri səviyyəsinin artırılması və strukturunun ardıcıl təkmilləşdirilməsi tələb olunur; **II)** xarici tələbin genişləndirilməsi. Bu məqsədlə isə, ümumi ixracın strukturunda qeyri-neft sektorunun payının ardıcıl olaraq yüksəldilməsi tələb olunur.

İstər daxili tələbin genişlənməsinə əsaslanan iqtisadi artım modeli, istərsə də xarici tələbin yönəlmiş iqtisadi artım modelinin reallaşdırılması zamanı strateji hədəflərin əldə olunması üçün iqtisadiyyatda yüksək dərəcədə səmərəli fəaliyyət göstərən Milli İnnovasiya Sisteminin yaradılması, dövlət və özəl sektor üzrə investisiyaların səviyyəsinin əhəmiyyətli artırılması, iqtisadiyyatda institusional təkmilləşdirmələrin aparılması ilə yanaşı, araşdırılmalı və həlli tələb olunan əsas makroiqtisadi problemlərdə mövcuddur:

- *investisiyaların sürətli artımı şəraitində makroiqtisadi sabitliyin təmin olunması.* AMB mütəxəssislərinin hesablamaları üzrə, hal-hazırda, ölkədə makroiqtisadi stabilliyin təmin olunması, hər il, valyuta bazarına maksimum 5 mlrd. ABŞ dolları səviyyəsində alış yönümlü müdaxilə şəraitində təmin oluna bilər. Yüksək investisiyalar, yüksək iqtisadi artım şəraitində isə dövriyyədə olan pul kütləsinin sürətli artımı inflyasiya proseslərinin nəzarətdən çıxması ilə nəticələnə bilər;

- *istifadə olunan pul-kredit rejimi və monetar idarəetmə strukturunun təkmilləşdirilməsi.* Hal-hazırda Azərbaycanda monetar idarəetmə sxemi iki səviyyəli struktur üzrə formalaşır: birinci səviyyə üzrə, monetar siyasətin ənənəvi mexanizm və alətlərini əhatə edərək iqtisadiyyatda istehlak qiymətləri; ikinci səviyyə üzrə isə, bankların fəaliyyətinin prudensial normativlərini istifadə olunaraq, onların aktiv əməliyyatlarının miqyasının tənzimlənməsi üzrə. Təkmilləşdirmənin əsas məsələləri kimi manatın AQP problemi, real effektiv mübadilə məzənnəsinin möhkəmlənməsi, manatın nominal mübadilə məzənnəsinin optimal səviyyəsi, faiz dərəcəsi və dövriyyədə olan pul kütləsinin genişlənməsi məsələləri öz həllini tapmalıdır;

- *pul-kredit və büdcə-vergi siyasətləri arasında əlaqələndirmə mexanizmlərinin təkmilləşdirilməsi.* Dövlət büdcəsi zərfi hazırlanarkən əsas makroiqtisadi göstəricilər arasında əlaqələndimə (ÜDM-də qeyri-neft istehsal sahələrinin payı, dövriyyədə olan pul kütləsi, emissiya, kredit qoyuluşları, inflyasiya, əhalinin gəlirləri, manatın nominal mübadilə məzənnəsi, ticarət balansının saldosu, strateji və AMB-in qızıl-valyuta ehtiyatlarının səviyyələri və s.) və onların proqnozlaşdırılması qarşıdakı 3 ilə aparılır. Bu zaman istər büdcə-vergi, istərsə də monetar siyasətlər, stabilləşdirmə siyasəti çərçivəsində, eyni istiqamətli müəyyənləşir – ya ekspansiya siyasəti (2005-2008-ci illərin təcrübəsi), ya da restriksiya siyasəti (1996-1999-ci illərin təcrübəsi). Orta müddətli perspektivə isə, stabilləşdirmə siyasəti çərçivəsində, pul-kredit və büdcə-vergi siyasətlərinin fərqli istiqamətlərdə reallaşdırıla bilər - sərt fiskal və yumşaq monetar və əksinə, yumşaq fiskal və sərt monetar siyasətlər. Bu baxımdan, orta müddətli perspektivə, büdcə-vergi və pul-kredit siyasətlərinin əlaqələndirilməsi imkanları daha genişdir.

- *struktur siyasəti.* Ölkə iqtisadiyyatı strukturunun inkişaf etdirilməsi və geniş diversifikasiyasının təmin edilməsi baxımından 3 sahə fərqləndirilir: **I.** yanacaq-enerji kompleksi sahələri, metallurgiya və digər rəqabətqabiliyyətliliyini və xarici investisiyalar üçün cəlbediciliyini saxlayan sahələr; **II.** ixrac

imkanlarına malik sahələr: neft-kimya sənayesi sahələri, tikinti materialları istehsalı sahələri, yüngül və yeyinti sənaye sahələri, kənd təsərrüfatı sahələri; **III.** daxili bazarda rəqabətqabiliyyətlilik imkanlarına malik istehsal sahələri: istehlak malları istehsalı, və ilk növbədə, yüngül və yeyinti sənaye sahələri, tikinti sektoru və s. Bu baxımdam ölkədə fəaliyyət göstrən bir sıra ixtisaslaşdırılmış dövlət fondlarının – Azərbaycan Respublikası İnvestisiya Fondu; Sahibkarlığa Yardım Milli Fondu; İpoteka Fondu və nəhayət, Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitlərinin orta müddətli perspektivə istifadə proqramları hazırlanmalıdır.

## Nəticə

• Azərbaycanda istifadə olunan iqtisadi artım modeli və stabilləşmə mexanizmlərinə xas olan bir sıra çatışmazlıqlar mövcuddur. İlk növbədə bu sıraya, açıq iqtisadiyyat və daxili bazarda qiymət paritetinin pozulması şəraitində istifadə olunan iqtisadi artım modeli və makroiqtisadi stabilləşdirmə mexanizminin iqtisadiyyatda, daha çox, idxalın artımını və xidmət sektorunun genişlənməsini stimullaşdırılması aiddir. Nəticədə, ölkədə stabil iqtisadi artımla yanaşı, iqtisadiyyatın neft qaz sektorundan asılılığı qorunub saxlanılır, daxili istehsalın inkişafı dövlət büdcəsində investisiyalar və dövlət satınalmaları səviyyələri ilə müəyyənləşir;

• istər ölkə daxilində, istərsə də ölkə xaricində bir sıra iqtisadçıların mülahizələrinə əsasən problemin həlli istifadə olunan iqtisadi artım modelinin (tələb iqtisadiyyatı modelinin), yenisi ilə - təklif iqtisadiyyatı modeli ilə (iqtisadiyyatda dövlət investisiyalarının özəl investisiyalar ilə əvəzlənməsini, dövlətin iqtisadiyyatı tənzimlənməsində rolunu ardıcıl olaraq məhdudlaşdırılmasını və özəl sektorun, sahibkarlığın genişləndirilməsi ilə) əvəzlənməsini tələb edir;

• məsələsinin həlli iki müstəvi üzrə icra oluna bilər: ı) daxili tələbin səviyyəsi və strukturunun əhəmiyyətli genişləndirilməsi yolu ilə - bu zaman, büdcə xərcləri səviyyəsinin artırılması və strukturunun ardıcıl təkmilləşdirilməsi tələb olunur; ıı) xarici tələbin genişləndirilməsi - bu məqsədlə isə, ümumi ixracın strukturunda qeyri-neft sektorunun payının ardıcıl olaraq yüksəldilməsi tələb olunur.

## ƏDƏBİYYAT


1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29 noyabr 2011-http://www.president.az/
2. Aliyev I., Haciyev A., Haciyev R. Economic growth and features of macroeconomic regulation in Azerbaijan, Journal of International Scientific Publication: Economy&Business, vol. 5, part 4, 2011, pp. 16-24. Published at: http://www.science-journals.eu.
3. Haciyev R. IMF continues reforms in Azerbaijan, Azerbaijan to day, 2, 2002, pp.20-22.
4. Илларионов А. http://aillarionov.livejournal.com/378549.html.

# ОСОБЕННОСТИ И НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ МОДЕЛИ ЭКОНОМИЧЕСКОГО РОСТА В АЗЕРБАЙДЖАНЕ

**А.Г.ГАДЖИЕВ**

## РЕЗЮМЕ

В статье анализируются особенности и перспективы развития стабилизационной политики и модели экономического роста в Азербайджане.

Как и во многих странах с развивающимися финансовыми рынками и специфичными структурными характеристиками экономики, в Азербайджане обменный курс маната, по отношению к доллару США является важным «номинальным якорем» поддержания макроэкономической стабильности. Однако, данная политика по сдерживанию уровня инфляции имеет и целый ряд негативных воздействий на процессы экономического роста в стране.

Применяемая модель экономического роста основана на стимулировании внутреннего спроса. В статье рассматриваются вопросы и возможности перехода на экономику предложения.

**Ключевые слова:** инфляция, валютный курс, монетарная политика, государственный бюджет, стабилизационная политика, модель экономического роста

# FEATURES AND LINES OF IMPROVING THE MODEL OF ECONOMIC GROWTH IN AZERBAIJAN

**A.H.HAJIYEV**

## SUMMARY

The article analyses the peculiarities and perspectives of the stabilization policy and the model of economic growth in Azerbaijan.

As in many countries with developing financial markets and specific structural characteristics of the economy, the exchange rate of Azerbaijan manat to US dollar is an important “nominal anchor” for ensuring the macroeconomic stability. In other words, among all possible interim monetary indices, manat’s exchange rate is the most controlled and predictable orientate for achieving ultimate aims of monetary policy – stabilization of price and financial system. With intensification and complication of the capital market, the demand for money becomes unstable and the interest rate comes out as a main orientate for the participants of economy.

The applied model of economic growth is based on the stimulation of the domestic demand.

**Key words:** inflation, exchange rate, monetary policy, state budget, stabilization policy, the model of economic growth